**“Miqrasiya sahəsində qanunvericiliyin pozulmasına görə miqrasiya orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin hesabına keçirilən vəsaitdən istifadə Qaydası”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2011-ci il 8 aprel tarixli 98-IVQD nömrəli Qanununun tətbiqi və “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 206 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 aprel tarixli 425 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Miqrasiya sahəsində qanunvericiliyin pozulmasına görə miqrasiya orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin hesabına keçirilən vəsaitdən istifadə Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur RASİZADƏ**

Bakı şəhəri, 28 iyun 2011-ci il
104

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2011-ci il 28 iyun tarixli 104 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Miqrasiya sahəsində qanunvericiliyin pozulmasına görə miqrasiya orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin hesabına keçirilən vəsaitdən istifadə**

## Q A Y D A S I

### 1. Ümumi müddəalar

*1.1. Bu Qayda Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”nin 90-1-ci maddəsinə əsasən hazırlanmışdır və miqrasiya sahəsində qanunvericiliyin pozulmasına görə miqrasiya orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanılan və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi xəzinə hesabına (bundan sonra - xüsusi xəzinə hesabı) keçirilən xüsusi vəsaitdən istifadə qaydasını müəyyən edir.*[1]

1.2. Xüsusi vəsaitdən miqrasiya orqanları işçilərinin sosial müdafiəsini gücləndirmək və maddi təminatını yaxşılaşdırmaq məqsədi ilə istifadə olunur.

1.3. Xüsusi vəsaitin toplanması və təyinatı üzrə istifadə edilməsi məqsədi ilə *Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyində* Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti üçün xüsusi xəzinə hesabı açılır.[2]

1.4. Xüsusi xəzinə hesabının maliyyə mənbəyini miqrasiya sahəsində qanunvericiliyin pozulmasına görə miqrasiya orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan vəsait təşkil edir.

1.5. Xüsusi vəsait miqrasiya orqanları işçilərinin aylıq vəzifə maaşına əlavə olunmaqla ödənilir.

1.6. Bu Qaydaya əsasən aylıq vəzifə maaşlarına ödənilən əlavə “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.5-ci maddəsində nəzərdə tutulmuş təminat xərcliyinə daxil edilmir.

### 2. Xüsusi vəsaitdən istifadə qaydası

2.1. Köçürmələrin və bununla əlaqədar nəzarətin həyata keçirilməsi Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən təmin olunur.

2.2. Xüsusi vəsaitin istifadə olunmasına dair hesabat Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən hazırlanır və müəyyən edilmiş müddətdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilir.

2.3. Vəsaitin istifadə olunması ilə bağlı digər məsələlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin *2017-ci il 17 noyabr tarixli 502* nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların büdcədənkənar vəsaitləri haqqında Əsasnamə”yə uyğun olaraq həyata keçirilir. [3]

### 3. Aylıq vəzifə maaşına əlavənin hesablanması qaydası

3.1. Aylıq vəzifə maaşına əlavənin ödənilməsi ayda bir dəfə olmaqla, hər ay üçün növbəti ayda həyata keçirilir.

3.2. Aylıq vəzifə maaşına əlavənin ödənilməsi məqsədi ilə hər ay üçün tam əlavə hesablanır. Əlavənin hesablanması üçün miqrasiya orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan vəsaitin *18* faizi həmin ayda miqrasiya orqanları işçilərinin faktiki sayına bölünür. [4]

3.3. Əlavə tam rəqəmdən sonra yüzdə birə qədər riyazi yuvarlaqlaşdırma aparılmaqla müəyyən edilir və aşağıdakı düstura uyğun hesablanır:

$$\text{TƏ} = \frac{\text{XV} \times 18}{100} : \text{İFS}$$

Burada:

TƏ - aylıq vəzifə maaşına tam əlavə;

XV - hesabat ayı üçün xüsusi xəzinə hesabına daxil olan vəsait (manatla);

İFS - həmin ayda miqrasiya orqanlarında işləmiş işçilərin faktiki sayıdır.

3.4. Aylıq vəzifə maaşına natamam əlavə miqrasiya orqanları işçiləri üçün ödənilən tam əlavə, hesabat ayında iş günlərinin sayı və işlənilmiş iş günlərinin sayı tətbiq edilməklə, aşağıdakı düstura uyğun hesablanır:

$$\text{NƏ} = \frac{\text{TƏ} \times \text{İİG}}{\text{HİG}}$$

Burada:

NƏ - aylıq vəzifə maaşına natamam əlavə;

HİG - hesabat ayında iş günlərinin sayı;

İİG - işçinin işlədiyi iş günlərinin sayı;

TƏ - aylıq vəzifə maaşına tam əlavədir.

## 4. Aylıq vəzifə maaşına əlavənin ödənilməsi şərtləri

4.1. Aylıq vəzifə maaşına əlavə işçinin aylıq əməkhaqqına daxil edilir.

4.2. Miqrasiya orqanlarında qulluğuna xitam verilmiş, miqrasiya orqanlarının sərəncamında olan və vəzifəsindən müvəqqəti kənarlaşdırılmış işçilərin aylıq vəzifə maaşına əlavə onların hesabat ayında işlədiyi iş günlərinə uyğun olaraq ödənilir.

4.3. Aylıq vəzifə maaşına əlavəyə gəlir vergisi və *"Sosial sığorta haqqında", "İşsizlikdən sığorta haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş* ayırmalar müvafiq qanunvericiliyə uyğun olaraq tətbiq edilir.[5]

4.4. Aylıq vəzifə maaşına əlavə hesablanarkən, orta aylıq əməkhaqqı saxlanılan dövrdəki iş günləri nəzərə alınmır.

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 11 oktyabr 2017-ci il tarixli **424** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 12 oktyabr 2017-ci il, 223, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 10 , maddə 1889)**
2. 27 may 2019-cu il tarixli **244** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 31 may 2019-cu il, 118, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 977)**
3. 7 dekabr 2020-ci il tarixli **486** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 9 dekabr 2020-ci il, 258, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, V kitab, maddə 1590)**
4. 5 mart 2021-ci il tarixli **57** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 12 mart 2021-ci il, 55 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 3, maddə 276)**


### QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 11 oktyabr 2017-ci il tarixli **424** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 12 oktyabr 2017-ci il, 223, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 10 , maddə 1889)** "Miqrasiya sahəsində qanunvericiliyin pozulmasına görə miqrasiya orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin hesabına keçirilən vəsaitdən istifadə Qaydası"nın 1.1-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~1.1. Bu Qayda "Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2011-ci il 8 aprel tarixli 98-IVQD nömrəli Qanununun tətbiqi və "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq~~

~~edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 206 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 aprel tarixli 425 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır və miqrasiya sahəsində qanunvericiliyin pozulmasına görə miqrasiya orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi xəzinə hesabına (bundan sonra - xüsusi xəzinə hesabı) keçirilən xüsusi vəsaitdən istifadə qaydasını müəyyən edir.~~

[2] 27 may 2019-cu il tarixli **244** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 31 may 2019-cu il, 118, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 977** ) ilə "Miqrasiya sahəsində qanunvericiliyin pozulmasına görə miqrasiya orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin hesabına keçirilən vəsaitdən istifadə Qaydası"nın 1.3-cü bəndində "**Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyində**" sözləri "**Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyində** " sözləri ilə əvəz edilmişdir.

[3] 7 dekabr 2020-ci il tarixli **486** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 9 dekabr 2020-ci il, 258, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, V kitab, maddə 1590**) ilə "Miqrasiya sahəsində qanunvericiliyin pozulmasına görə miqrasiya orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin hesabına keçirilən vəsaitdən istifadə Qaydası"nın 2.3-cü bəndində "**1997-ci il 10 mart tarixli 16**" sözləri "**2017-ci il 17 noyabr tarixli 502** " sözləri ilə əvəz edilmişdir.

[4] 11 oktyabr 2017-ci il tarixli **424** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 12 oktyabr 2017-ci il, 223, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 10 , maddə 1889**) ilə "Miqrasiya sahəsində qanunvericiliyin pozulmasına görə miqrasiya orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin hesabına keçirilən vəsaitdən istifadə Qaydası"nın 3.2-ci bəndində və 3.3-cü bəndin düsturunda "**25**" rəqəmi "**20**" rəqəmi ilə əvəz edilmişdir.

7 dekabr 2020-ci il tarixli **486** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 9 dekabr 2020-ci il, 258, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, V kitab, maddə 1590**) ilə "Miqrasiya sahəsində qanunvericiliyin pozulmasına görə miqrasiya orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin hesabına keçirilən vəsaitdən istifadə Qaydası"nın 3.2-ci bəndində və 3.3-cü bəndin düsturunda "**20**" rəqəmləri "**18**" rəqəmləri ilə əvəz edilmişdir.

[5] 5 mart 2021-ci il tarixli **57** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 12 mart 2021-ci il, 55 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 3, maddə 276**) ilə "Miqrasiya sahəsində qanunvericiliyin pozulmasına görə miqrasiya orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin hesabına keçirilən vəsaitdən istifadə Qaydası"nın 4.3-cü bəndində "**Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna**" sözləri **"Sosial sığorta haqqında", "İşsizlikdən sığorta haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş**" sözləri ilə əvəz edilmişdir.